**Ayaz Vəfalı**

## Novruzgülü

Qar içində, aləm bilir,
Yaşıl örtdü novruzgülü;
Mənə dedi bahar gəlir –
Dedi, ötdü novruzgülü.
    Quşlar ona salam verdi,
    Ağır imiş bahar dərdi;
    Göllər yaşıl xalı sərdi –
    Gözdən itdi novruzgülü.
Bilmədim ki, bu nə işdi,
Özü yazdan ayrı düşdü;
Niyə belə tez gəlmişdi –
Tez də getdi novruzgülü.
    Tərk edəndə dağı-daşı,
    Ağ buludlar tökdü yaşı;
    Az yaşadı... amma qışı –
    Bahar etdi novruzgülü...

**Vəfalı A. Novruzgülü : şeir // Azərbaycanda Novruz. – Bakı : Çıraq, 2012. – S. 269. – Şeir ilk dəfə “Ədəbiyyat və incəsənət” qəzetinin 25 dekabr 1967-ci il tarixli sayında dərc olunmuşdur.**